# (HƏDIS (1 10

<"xml encoding="UTF-8?>

## (HƏDIS (1 10

Hədis 1: Həzrət Məhəmməd (s) buyurur: “Bütün yaxşılıqlardan üstün bir yaxşılıq vardır. Lakin ”.insan Allah yolunda öldürüldükdə, daha bundan da üstün bir yaxşılıq yoxdur

* * *

Hədis 2: Həzrət Məhəmməd (s) buyurur: “Heç bir damla Allah yolunda tökülən qan ”.damlasından əziz deyil

* * *

Hədis 3: İmam Sadiq (ə) buyurur: “Hər kəs Allah yolunda öldürülsə, Allah-təala ona heç bir .(günahını göstərməz.” (Bütün günahları bağışlanar

* * *

Hədis 4: İmam Sadiq (ə) buyurur: “Ailə xərcinin qorxusundan evlənməyən kəs Allaha qarşı sui-”.zənn etmişdir

* * *

Hədis 5: İmam Sadiq (ə) buyurur: “Hər kəs mö`mini yoxsulluğuna görə alçaq saysa, Allah-təala ”.da qiyamət günü onu xalq qarşısında rüsvay edər

* * *

Hədis 6: İmam Sadiq (ə) buyurur: “Bütün peyğəmbərlər bizim (Biz Əhli-beytin) üstünlüyümüzü ”.və haqqımızı tanıyaraq məb`us olmuşdur

:Hədis 7: İmam Baqir (ə) buyurur: “Üç şey insanın belini qırır

;Öz əməlini böyük saymaq .1

;Öz günahını yaddan çıxarmaq .2

”.Öz rəyindən xoşu gəlmək .3

* * *

Hədis 8: İmam Sadiq (ə) buyurur: “Allah-təalaya hüsn-zənn budur ki, Ondan başqa heç kəsə ”.ümidin olmasın və günahlarından başqa heç nədən qorxmayasan

* * *

”.Hədis 9: İmam Həsən (ə) buyurur: “Günahın cəzasını verməkdə tələsmə, üzr üçün bir yol qoy

* * *

Hədis 10: Həzrət Məhəmməd (s) buyurur: “Əməllərinizi Allah üçün xalisliklə yerinə yetirin. ”.Həqiqətən, Allah yalnız Onun üçün xalisliklə yerinə yetirilmiş əməlləri qəbul edir